# UŞAQ ƏDƏBİYYATININ TƏBLİĞİNDƏ İNNOVATİV KİTABXANA METODLARI

**_Lamiyə Əlizamin qızı Əliyeva_**

*BDU, doktorant*

*F.Köçərli ad. Respublika Uşaq Kitabxanasının əməkdaşı*

*miss.forcher09@gmail.com*

*ORCİD: 0000-0001-9985-2577*

**_Açar sözlər:_** *F.Köçərli adına Respublika Uşaq Kitabxanası, uşaq ədəbiyyatı, mütaliə mədəniyyəti, oxu vərdişi, kitabxana xidməti*

**_Ключевые слова:_** *Республиканская Детская Библиотека имени Ф.Кёчарли, детская литература, культура чтения, привычка к чтению, библиотечное обслуживание*

**_Keywords:_** *F. Kocharli Republican Children's Library, children's literature, reading culture, reading habit, library service*

**Xülasə:** Uşaqlarda oxu vərdişinin və mütaliə mədəniyyətinin formalaşmasında ailə, ictimai və təhsil müəssisələri, kitabxanalar mühüm əhəmiyyət daşıyır. Bu prosesdə kitabxanalar uşaqların yaş kateqoriyası, psixologiyası və fərdi maraqlarına uyğun ədəbiyyatın seçilməsi prosesində bələdçi funksiyasını yerinə yetirir. Dövrün tələblərinə uyğun olaraq, kitabxanalar, xüsusilə uşaq kitabxanaları oxucunu mütaliə prosesinin fəal iştirakçısına çevirmək üçün ənənəvi metodlarla yanaşı, innovativ təbliğat formalarından da istifadə edirlər. Bu yanaşma, kiçik yaşlı oxucu kütləsinin cəlb edilməsinə, uşaq ədəbiyyatının təbliğinə və oxu mədəniyyətinin inkişafına xidmət edir.

**Резюме:** В формировании у детей привычки к чтению и культуры чтения важную роль играют семья, общественные и образовательные учреждения, а также библиотеки. В этом процессе библиотеки играют роль проводника в выборе литературы, соответствующей возрастной категории, психологии и индивидуальным интересам детей. В соответствии с требованиями времени библиотеки особенно, детские библиотеки, наряду с традиционными методами используют также инновационные формы пропаганды для превращения читателя в активного участника процесса чтения. Такой подход служит привлечению младшей читательской аудитории, популяризации детской литературы и развитию культуры чтения.

**Summary:** Family, public and educational institutions, and libraries play an important role in the formation of reading habits and reading culture in children. In this process, libraries act as guides in the selection of literature appropriate to children's age group, psychology, and individual interests. In accordance with the requirements of the time, libraries especially, children's libraries use not only traditional methods but also innovative promotional forms to turn readers into active participants in the reading process. This approach serves to attract young readers, promote children's literature, and support the development of reading culture.

**Giriş:** Cəmiyyətin sosial-mədəni inkişafının əsas subyekti olan uşaqların əxlaqi-mənəvi, etik və estetik prinsiplər çərçivəsində tərbiyəsi milli özünüdərkin formalaşmasının ilkin tərkib hissəsidir. Bu istiqamətdə uşaq və gənclərin tərbiyəsində bir çox metod və vasitələr tətbiq edilir ki, bu vasitələr içərisində bədii ədəbiyyatın bir qolu olan uşaq ədəbiyyatı əvəzsiz rol oynayır. Uşaq ədəbiyyatı tərbiyə vasitəsi kimi uşaqların dünyagörüşünün inkişafında, milli və ümumbəşəri dəyərlərin aşılanmasında və onların sosial şəxsiyyət modelinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Uşaq ədəbiyyatı gənc nəsildə müasir dünyagörüşü, demokratik, humanist baxışlar, bədii qavrama və nitq mədəniyyətinin formalaşdırılmasının mühüm vasitəsidir [2, s.3]. Bu ədəbiyyat uşaqların daxili aləmini zəngin-

ləşdirir və onlarda yaradıcı təfəkkür, empatiya hissinin inkişafına müsbət təsir göstərir. Uşaqların mütaliə mədəniyyətini formalaşdırmaq və onların intellektual inkişafını dəstəkləmək üçün düzgün ədəbiyyat seçib təbliğ etmək vacibdir. Bu istiqamətdə oxu mədəniyyətinin təşviqi prosesi müxtəlif mərhələlərdən keçir:

1. **Ailə mühiti** – Uşaqlarda mütaliə mədəniyyətinin formalaşmasının ilkin mərhələsi ailədən başlayır. Valideynlərin övladlarına hekayə, nağıl, şeir kimi ədəbi nümunələr oxuması onların həm ünsiyyət bacarıqlarının inkişafında, həm də mütaliəyə olan marağın yaranmasında müstəsna rol oynayır.

2. **İctimai və təhsil müəssiələri** – Məktəbəqədər təhsil müəssisələri, uşaq bağçaları, məktəblər uşaqların oxu vərdişlərinin inkişafında mühüm rol oynayır. Müəllimlər tərəfindən seçilmiş ədəbi nümunələr, oxu saatları, ədəbi-bədii fəaliyyətlər, dərslik və dərs vəsaitləri uşaqların oxu mədəniyyətinin formalaşmasına dəstək verir.

3. **Kitabxanalar** – Uşaqlara oxu mədəniyyətinin təşviqində kitabxanalar həm əlçatan resurslar, həm də maarifləndirmə mərkəzi funksiyasını yerinə yetirir. Bu mühitdə uşaqlar fərdi maraqları və yaş həddinə uyğun kitablar seçməyi öyrənirlər.

Yuxarıda təqdim edilən 3 mərhələdən göründüyü kimi, hər bir mühitin özünəməxsus rolu var, lakin onları birləşdirən tək cəhət uşaqları düzgün tərbiyələndirmək və onların kitab oxumağa həvəslərini artırmaqdır. Uşaq ədəbiyyatının təbliği prosesində tətbiq edilən ənənəvi metodlar uzun müddət istifadə edilən təbliğat formalarıdır. Bu prosesdə təhsil müəssisələri ilə yanaşı, uşaq kitabxanaları da fəal iştirak edir. Respublikamızda fəaliyyət göstərən uşaq kitabxanaları üzrə elmi-metodiki mərkəz funksiyasını yerinə yetirən F.Köçərli adına Respublika Uşaq Kitabxanası kiçik yaşlı oxucuların yaş kateqoriyasına uyğun ədəbiyyat təqdim etməklə yanaşı, müxtəlif tədbirlər, kitab sərgiləri, yazıçılarla görüş, bədii-yaradıcı fəaliyyətlər, oxu saatları, şeir-esse müsabiqələri, bilik yarışmaları, teatr tamaşaları və s. təşkil edir. Kitabxana bu fəaliyyətlərlə bərabər, müxtəlif layihələr də həyata keçirir. Məsələn, 2013-cü ildə Respublika Uşaq Kitabxanası "Azərbaycan Uşaq Ədəbiyyatı" və "Uşaq Ədəbiyyatı Xəzinəsindən" adlı seriyadan "Firidun bəy Köçərli", "İlyas Tapdıq", "Abdulla Şaiq", "Xanımana Əlibəyli" kimi görkəmli uşaq ədəbiyyatı xadimlərinə həsr edilmiş biblioqrafiyalar nəşr etdirib. Eyni zamanda kitabxananın təşəbbüsü ilə görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin "Balalara hədiyyə", dünya ədəbiyyatı nümunələrindən "Türk dünyasının nağıl bağı" və "Əsrarəngiz Misir nağılları" kitabları nəşr etdirilib [3]. Bu layihələrin həyata keçirilməsində əsas məqsəd uşaq oxucularını mili ədəbi nümunələrlə yanaşı, dünya ədəbiyyatı inciləri ilə tanış etmək, onların bədii-estetik zövqünü formalaşdırmaq və ədəbiyyata olan maraqlarını stimullaşdırmaqdır.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkili ölkəmizdə ən böyük oxucu qrupu hesab edilən uşaqlara kitabxana xidmətini günün tələbləri səviyyəsinə qaldırmaq, onun forma və məzmununda yeni keyfiyyətləri aşkar edib inkişaf etdirmək, uşaqlara xidmət göstərən kitabxanaların işini əlaqəli şəkildə qurmaq, koordinasiya etmək, elmi cəhətdən əsaslandırmaq üçün böyük imkanlar açdı [1, s.195]. Kitabxana müasir dövrdə uşaq ədəbiyyatının təbliği sahəsində innovativ təbliğat üsulları da tətbiq edir. Belə ki, virtual istifadəçilər kitabxananın www.clb.az rəsmi saytına daxil olaraq elektron kataloq sisteminə keçid etməklə, mövcud informasiya resurslarından yararlana bilərlər. Bundan əlavə, oxucuları yeni ədəbiyyat və fondda mövcud olan resurslarla tanış etmək məqsədilə saytın giriş hissəsində "Kitab bələdçisi" adlı bölmə yerləşdirilib. Bu bölmədə məktəbəqədər, kiçik yaş, orta yaş qruplarına aid resurslar və brayl əlifbası ilə yazılmış kitablar virtual oxuculara təqdim edilir [4].

Kitabxananın "Multimedia" bölməsi də zəngin və çoxşaxəlidir. Burada virtual sərgilər, audio kitablar, uşaq mahnıları və cizgi filmləri yerləşdirilib. "Audio kitablar" yarımbölməsində isə ayrılıqda lətifələr, nağıllar, şeirlər, hekayələr, dərsliklər və danışan kitablar (kitabların video icmalları) öz əksini tapıb. Kitabxana inklüziv təhsil prinsipinə əsaslanaraq, məhdudiyyətli uşaqlar üçün də elektron re-

surslar istifadəyə verir. Görmə və eşitmə imkanları məhdud uşaqlar üçün fərqli bölmələrdə uyğunlaşdırılmış materiallar onların zaman və məkan məhdudiyyəti olmadan maariflənməsinə şərait yaradır. Respublika Uşaq Kitabxanası bütün bu təşəbbüslərlə yanaşı, sosial media platformalarında da aktivdir. Facebook, İnstagram, Youtube kimi sosial şəbəkələrdə kitabxana təbliğat və maarifləndirmə işləri apararaq uşaq ədəbiyyatının geniş kütləyə çatdırılmasına xidmət edir.

**Nəticə:** Respublika Uşaq Kitabxanası ənənəvi və innovativ metodlarla uşaqların mütaliə mədəniyyətinin və oxu vərdişlərinin formalaşması ilə məhdudlaşmır, eyni zamanda onların intellektual, sosial və emosional bacarıqlarının inkişafına müsbət təsir göstərir. Gələcəkdə bu, texnologiyanın innovatıv imkanlarından istifadə etməklə, uşaq ədəbiyyatının və inklüziv təhsilin cəmiyyətə təsirini artırmağa imkan verəcəkdir.

### Ədəbiyyat


1. *Bünyətzadə, F.* F.Köçərli adına Respublika Uşaq Kitabxanasının informasiya fəaliyyətinin əsas istiqamətləri // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2019. - №1. – 195 s.
2. *Məmmədova, Ş.* Uşaq ədəbiyyatı:Azərbaycan uşaq ədəbiyyatı antologiyası / Ş.Məmmədova. – Bakı: ADPU nəşriyyatı. – c.1. – 2018. – 295 s. s.3.
3. “Tariximiz”, https://www.clb.az/haqqimizda/tariximiz
4. https://www.clb.az/kitablar